## İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:

1. Siz imtahan günü buraxılış vərəqənizdə göstərilən vaxtda imtahan verəcəyiniz binanın qarşısına gəlməli, özünüzlə mütləq qara və ya tünd göy rəngdə yazan, mürəkkəb axıtmayan diyircəkli qələm və aşağıdakı sənədləri gətirməlisiniz:
    - **şəxsiyyəti təsdiq edən sənədi** (Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqələrini, əcnəbilər pasportlarını və ya icazə vəsiqələrini, vətəndaşlığı olmayan şəxslər yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün onlara verilən sənədləri və ya icazə vəsiqələrini, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini, qaçqın statusu almış şəxslər və onların ailə üzvləri isə qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini);
      **Qeyd: Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan abituriyentlər,** digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı *(arayışa şagirdin 3x4 sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).*
    - **imtahana buraxılış vərəqəsi,**
2. Abituriyent aşağıdakı hallarda imtahana buraxılmır:
    - tələb olunan sənədlərdən hər hansı biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
    - saxta sənəd təqdim etdikdə;
    - imtahan binasına imtahanın başlanmasına 15 dəqiqə qalmış gəldikdə;
    - imtahan binasına imtahana gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.

## ABİTURİYENTƏ QADAĞANDIR:

- saxta sənəd təqdim etmək;
- imtahana öz yerinə başqasını göndərmək;
- imtahan binasına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, məlumat kitabçası, çanta, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək;

**DİQQƏT!** Abituriyentin imtahan binasına qadağan edilmiş vasitə, vəsait və ya əşya keçirdiyi müəyyənləşdirilərsə bu barədə imtahan rəhbəri tərəfindən akt tərtib edilir və bu vasitə, vəsait və ya əşyalar araşdırma aparmaq üçün Dövlət İmtahan Mərkəzinə təhvil verilir.
**DİQQƏT!** Texniki vasitələrin informasiya ötürücülük xüsusiyyətini müəyyənləşdirmək mümkün olmadıqda da bu vasitələrin imtahan binasına buraxılmasına icazə verilmir.

- yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu növ əşyalarla imtahan binasına girmək, özü ilə yemək, içmək (şəffaf plastik qabda qazsız içməli su istisna olmaqla), siqaret gətirmək;
- sual kitabçaları paylandıqdan sonra hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
- nizam-intizam qaydalarını pozmaq;
- zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;
- başqasının inşa vərəqinə baxmaq və ya öz inşa vərəqinə başqasının baxması üçün şərait yaratmaq;
- "İmtahan başlandı!" elan olunan andan **1 saat müddət keçənədək və imtahanın son 15 dəqiqəsi ərzində**, səbəbindən asılı olmayaraq, imtahan zalından çıxmaq;
- nəzarətçiyə test tapşırıqlarının həllində kömək üçün müraciət etmək;
- inşa vərəqini nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.

**DİQQƏT!** Belə hallara yol verən abituriyentlər imtahandan xaric olunacaq və onların imtahan nəticələri DİM tərəfindən ləğv olunacaqdır.